www.yeniazerbaycan.com

09 noyabr 2019-cu il, şənbə / № 208 (5583)

YENİ AZƏRBA

# Əli Əhmədov: Hər bir Azərbaycan vətəndaşı dövlətimizin bayrağı ilə fəxr edir, onu sevir və uca tutur

**“Noyabr ayının 9-da Azərbaycanda Bayraq Günü qeyd edilir. Bayraq dövlətin rəmzi, müstəqilliyin atributudur. Bayraq, habelə xalqın qürur mənbəyi, onun özünütanıma və özünüifadə formasıdır. Hər bir Azərbaycan vətəndaşı dövlətimizin bayrağı ilə fəxr edir, onu sevir və uca tutur. İndi bayrağımız dünyanın müxtəlif yerlərində mötəbər məclislərdə, idman yarışlarında**



**dalğalanır”**. Bu fikirlər Baş Nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədovun Bayraq Günü münasibətilə özünün “Facebook” səhifəsindəki paylaşımında yer almışdır.

**“Bayraq Günü münasibətilə hər birinizi təbrik edir, xalqımıza əmin-amanlıq, ölkəmizə daha böyük tərəqqi və yüksəliş arzulayıram”**, - Əli Əhmədov fikirlərini bu təbrik sözləri ilə yekunlaşdırıb.